Elmi Xəbərlər Jurnalı Nömrə 5, 2025 130-137
DOI:10.30546/gdu.5.2025

**UOT:82.**

# ŞUŞANIN MAARİFPƏRVƏR ZİYALISI – ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

***Əlizadə Tamara Şərbət qızı, Nağıyeva Dürdanə Əsəd qızı***
***Azərbaycan Tibb Universiteti, Azərbaycan dili kafedrası***
**alizadetamara@yahoo.com**

**Xülasə:** *Azərbaycan yazıçısı və dramaturqu, ictimai-siyasi xadimi, Azərbaycan ədəbiyyatının klassiki Əbdürrəhim bəy Haqverdiyev XIX əsrin sonu – XX əsrin əvvəllərində ədəbi-mədəni mühitin aparıcı simalarından biri olmuşdur. O ədəbi yaradıcılığa Şuşada təhsil aldığı zamanlarda başlamışdır. Haqverdiyevin qırx illik ədəbi fəaliyyəti boyunca hekayə, teatr, felyeton, libretto, elmi və satirik məqalələr yazmışdır. Yazıçının yaradıcılıq sənəti tədqiqatçılar tərəfindən üç dövrə bölünür: birinci dövr (1892–1905), ikinci dövr (1905–1920), üçüncü dövr (1920–1933).*

*Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığının bir hissəsi publisistik əsərlərdən ibarətdir. Əsərləri ilə demokratik maarifçi ideyaların geniş xalq kütləsinə yayılmasına çalışmışdır. İctimai laqeydlik və ətaləti tənqid etmişdir. Yazıçı cəmiyyətin tərəqqisi üçün vətəndaş fəallığı və vətənpərvərlik tələb edirdi, təbliğ edirdi.*

*Əbdürrəhim bəy Haqverdiyev, dramaturq olmaqla yanaşı, özünəməxsus ədəbi sənət üslubu ilə Azərbaycan ədəbiyyatında xüsusi yer tutmuşdur. Onun yazdığı hekayələr Azərbaycan Sovet nəsrinin 1920–30-cu illərində yeni əsərlər yazmağa başlayan Mir Cəlal, Sabit Rəhman və digər yazarların inkişafında mühüm rol oynamışdır. Müəllifin hekayələrində cəmiyyətin qüsurları tənqid edilmişdir.*

*Əbdürrəhim bəy Haqverdiyevin ümumilikdə 80-dən çox hekayəsi var və onun hekayələri də daxil bütün əsərləri öz aktuallığı ilə hər zaman maraq doğurur.*

*XIX əsrin sonlarından etibarən dram əsərləri ilə peşəkar ədəbi fəaliyyətə başlayan Əbdürrəhim bəy Haqverdiyev, bu dövrə qədər rus ədəbiyyatından bir neçə qısa tərcümələr etmişdir. Onun tərcümə etdiyi əsərlərin də Azərbaycan oxucusuna böyük təsiri olmuşdur.*

**Açar sözlər**: Haqverdiyev, dramaturq, maarifçi realizm, tənqidi realizm, komediya, felyeton.

**Keywords:** Hagverdiev, dramatist, enlightened realism, critical realism, comedy, feuilleton.

**Ключевые слова:** Хагвердиев, драматург, просвещенный реализм, критический реализм, комедия, фельетон.

Azərbaycan yazıçısı və dramaturqu, ictimai-siyasi xadimi, Azərbaycan ədəbiyyatının klassiki Əbdürrəhim bəy Haqverdiyev XIX əsrin sonu – XX əsrin əvvəllərində ədəbi-mədəni mühitin aparıcı simalarından biri olmuşdur. Şuşada yeni açılan rus dilli realnı məktəbdə rus dilində təhsil almışdır. Onun teatra böyük marağının nəticəsi idi ki, Şuşaya dincəlməyə gələn müəllim və tələbələrin köməyi ilə teatr tamaşaları hazırlayırdı. Üzeyir Hacıbəyovunqardaşı Zülfüqar Hacıbəyov xatirələrində yazırdı ki, "Əbdürrəhim bəyə Şuşada Şəbehgərdan adı qoymuşdular. Bu, görkəmli dramaturqun teatra olan böyük məhəbbəti ilə bağlı idi". O ədəbi yaradıcılığa Şuşada təhsil aldığı zamanlarda başlamışdır. Görkəmli dramatuq Mirzə Fətəli Axundzadənin əsərləri onun üzərində dərin iz buraxmış və beləliklə, Axundzadənin "Hacı Qara" komediyasına bənzər, ilk yazı təcrübəsi olan "Hacı Daşdəmir" pyesi meydana gəlmişdir (4, 33).

XIX əsrin sonlarından etibarən dram əsərləri ilə peşəkar ədəbi fəaliyyətə başlayan Əbdürrəhim bəy Haqverdiyev, bu dövrə qədər rus ədəbiyyatından bir neçə qısa tərcümələr

DOI:10.30546/gdu.5.2025

etmişdir. O, öz avtobioqrafiyasında bu barədə yazır: "Realnı məktəbdə oxuyarkən, 1887-ci ildə Krılovun təmsillərindən bir neçəsini Azərbaycan dilinə şeirlə tərcümə etmişəm. İlk əsərim olduğundan bağışlanmağımı rica edirəm" (5, 473).

Tiflisdə təhsil aldığı zamanlarda Haqverdiyev "Nahaq qan" adlı beş pərdəli dram əsərini yazdığını bildirir. Ancaq əsərin yalnız üç pərdəsi əlində qalıb. Müəllif əsərin digər iki pərdəsini itirdiyini qeyd etmişdir. Deməli, Peterburqda ali təhsil almağa gedənə qədər Haqverdiyevin yaradıcılığı bir neçə şeirin mənzum tərcüməsi və iki dram əsəri ("Hacı Daşdəmir” və "Nahaq qan") ilə məhdudlaşır (4, 33). Amma yazıçının ədəbi həyatının başlanğıcı tədqiqatçılar tərəfindən Peterburqdakı təhsil illərinə aid olunur. Burada olduğu müddətdə yazıçı Peterburq ədəbi və mədəni mühiti ilə tanış olmuşdur. Beləliklə, bu mühit yazıçının gələcək sənət həyatına mühüm dərəcədə təsir etmişdir. Yazıçı, Peterburqda olduğu illər ərzində rus və Qərb ədəbiyyatını dərindən öyrənmiş və tez-tez teatra gedərək özünü təkmilləşdirməyi bacarmışdır.

Əbdürrəhim bəy Haqverdiyev, 1892-ci ildə "Yeyərsən qaz ətini, görərsən ləzzətini" və 1896-cı ildə yazdığı "Dağılan tifaq" dramı ilə peşəkar ədəbi fəaliyyətə başlamışdır (6, 32).

Haqverdiyev qırx illik ədəbi fəaliyyəti boyunca hekayə, teatr, felyeton, libretto, elmi və satirik məqalələr yazmışdır. Yazıçının yaradıcılıq sənəti tədqiqatçılar tərəfindən üç dövrə bölünür:

— Birinci dövr (1892–1905)
— İkinci dövr (1905–1920)
— Üçüncü dövr (1920–1933)

Peterburqda "Yeyərsən qaz ətini, görərsən ləzzətini" və "Dağılan tifaq" əsərlərini yazdıqdan sonra Əbdürrəhim bəy Haqverdiyev Azərbaycana geri qayıtmışdır. Bakıda olduğu müddətdə ilk olaraq "Bəxtsiz cavan", daha sonra "Pəri cadu" əsərlərini qələmə almışdır. Yaradıcılığının ilk dövründə dramaturq kimi tanınan yazıçı, əsərlərində adətən kəndli-ağa həyatından səhnələr yaratmış və burada istismarçı sinfi kəskin tənqid etmişdir. Yazıçının ilk komediyası olan "Yeyərsən qaz ətini, görərsən ləzzətini" əsərində bir tacirin həyatından bəhs edilir. Bu əsərdə tacirin ailəsində baş verən tragikomik hadisələr təsvir olunur. Üç pərdədən ibarət oyunda, o dövrün əsas problemlərindən biri olan çoxarvadlılıq mövzusu yazıçı tərəfindən tənqid edilmişdir. Bu əsərdə o, əsası Mirzə Fətəli Axundzadə tərəfindən əsası qoyulan dram janrına zənginlik gətirmişdir.

Bir neçə ildən sonra Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan teatrının klassik nümunələrindən sayılan "Dağılan tifaq" pyesini qələmə almışdır. Bu əsərin meydana gəlməyində Şuşa mühitinin əhəmiyyəti böyükdür. Buradakı gündəlik problemləri təsvir edən yazıçı, xüsusilə bəylərin və ağaların həyat tərzini yaxından müşahidə etmişdir. Pyesdə gənc yazıçı, Nəcəf bəy və onun məclis dostları olan digər bəylərin artıq əvvəlki nüfuzlarını itirdiklərini və onların yaşadıqları çətin həyatı əks etdirmişdir (3, 11).

Haqverdiyev 1900-cü ildə "Bəxtsiz cavan" pyesini yazmış və burada öz düşüncələrini inkişaf etdirərək cəmiyyətin üst təbəqəsini olduqca sərt dillə tənqid etmişdir. O, əsərdəki maarifçi Fərhad obrazı ilə demokratik düşüncələrini əks etdirmişdir. Fərhad dövrünün inkişaf etmiş ziyalılarından biri olub, köhnə fikirlərə mənsub olmamış və adət-ənənələrin gətirdiyi problemlərlə mübarizə aparmışdır. O, kəndlilərin həyatını yaxşılaşdırmaq üçün çalışmış və onları zülm və cəhalətdən xilas etməyin ən əsas yolunun təhsil olduğuna inanmışdır. Azərbaycan dramaturgiyası tarixində mülkədarların yeniliyə qarşı sırf ictimai-sinfi mövqedən çıxış etməsi, öz mənafelərini müdafiə etmək üçün kəndliləri bilərək savadsız saxlamaq istəmələri məhz bu əsərlə başlayır (4, 62).

Əbdürrəhim bəyin yaradıcılığının birinci dövründə qələmə aldığı son əsəri "Pəri Cadu"dur. Bu pyes mövzu baxımından əvvəlki əsərlərindən seçilir. Bu əsərdə ilk dəfə mifoloji

DOI:10.30546/gdu.5.2025

obrazlardan (Pəri, Əcinnə, İblis) istifadə olunmuş, əcinnə və cadu kimi mücərrəd anlayışlar şəxsiləşdirilərək dramatik əsərin konkret personajlarına çevrilmişdir. Əsərin bədii qarşıdurması xeyirlə şərin mübarizəsi üzərində əksini tapır. Əsər, Pəri adlı gənc bir xanımın intiqam hekayəsi üzərində qurulub. Pəri boşandıqdan sonra bütün kişilərdən intiqam almaq istəyir. Bu məqsədlə cinləri, şeytanları və divləri köməyə çağırır. İblis ona kömək etmək üçün şeytan övladlarını və Şamama adlı qadını göndərir. Bu hadisədən sonra o, cadugərə çevrilir, ancaq Qurban adlı gəncə aşiq olduqdan sonra qisas və nifrət hissi sona çatır. Yazıçı bu əsərdə simvolik obrazları və realist obrazları bir arada göstərməklə yaşadığı dövrdə mənfi qüvvələrin üstünlüyünü ifadə etməyə çalışmışdır. Əsərdə varlı təbəqənin amansız zülmü və insanların müxtəlif siniflərə bölünməsi əks edilmişdir. Əvvəlki əsərlərində kasıb ailələrin həyatına çox toxunmayan yazıçı, bu əsərində Qurban və ailəsinin varlı təbəqəyə qarşı mübarizəsinə xüsusi diqqət göstərmişdir (3, 14).

Əbdürrəhim bəy yaradıcılığının ikinci dövrü özünün də qeyd elədiyi kimi "Mirzə Cəlil, Sabir kimi inqilabçı-demokrat sənətkarlarla çiyin-çiyinə irəlilədiyi" dövrdür. Yaradıcılığının ikinci dövründə onun həyatı realist inikas prinsiplərində əsaslı dəyişmə olduğu, maarifçi realizmdən tənqidi realizmə keçid prosesinin baş verməsi indi ədəbiyyatşünaslıqda mübahisə yaratmayan məsələlərdən biridir. Haqverdiyev yaradıcılığının 2-ci dövrünün başlaması 1905-ci il inqilabına təsadüf edir. İnqilabdan sonra ədəbiyyatın əsas mövzusu olaraq artıq azadlıq, işçi və kəndlilərin hüquqlarının müdafiə olunması əsas götürülmüşdür. Yeni azad mətbuat orqanları – qəzetlər, jurnallar nəşr edilməyə başlamışdır. Bu mətbuat orqanları arasında 1906-cı ildən etibarən Tiflisdə Cəlil Məmmədquluzadə tərəfindən nəşr edilən "Molla Nəsrəddin" jurnalı da yer almışdır. "Molla Nəsrəddin" qısa zamanda böyük bir oxucu kütləsinə təsir etmiş və Türkiyə, Özbəkistan, Türkmənistan, Tatarıstan, Dağıstan, Krım və İran kimi ölkələrdə də izlənmişdir. Jurnalın ətrafında Azərbaycanın realist ziyalıları bir araya yığışmışdır. Bundan əlavə, 1905-ci ilə qədər yalnız teatr yazıçısı kimi tanınan Əbdürrəhim bəy Haqverdiyev sonradan jurnalın mühüm müəlliflərindən biri olmuşdur. Yazıçı 1905-ci ildə yazdığı "Millət dostları" adlı komediyası ilə ilk satirik əsərini qələmə almışdır. Bu əsər, onun yaradıcılığının ikinci mərhələsinin başlanğıcı kimi dəyərləndirilmişdir. Haqverdiyev bu əsərində millətin adından çıxış edərək dövrün "ziyalılarını" tənqid hədəfinə çevirmişdir. Bu tənqid üslubu "Molla Nəsrəddin" jurnalı ətrafında birləşən bütün ziyalılara aid idi.

Yazıçı inqilabdan əvvəl yazmağa başladığı “Ağa Məhəmməd Şah Qacar” adlı əsərini də yaradıcılığının bu dövründə tamamlayır. 1907-ci ildə yekunlaşan əsərin qaynaqlarını toplamaq üçün ədib Peterburq və Mazandaran arxivlərində araşdırmalar edir. "Ağa Məhəmməd şah Qacar" Azərbaycan ədəbiyyat tarixindəki ikinci tarixi faciə hesab edilir. Faciə janrında yazılmış bu əsərdə yazıçı, tarixi şəxsiyyət Ağa Məhəmməd Şah Qacarın xarakterini gerçəyə ən yaxın şəkildə təqdim etməyə çalışmışdır. Eyni zamanda, tarixi hadisələrə də olduqca realist bir yanaşma sərgiləmişdir. Əsəri qələmə alarkən yazıçı, yaxın dostu və tanınmış teatr aktyoru Hüseynqulu Ərəblinskinin istəyi ilə qadın obrazlarına yer verməyib (8, 86). Buna səbəb əsər səhnələnərkən qadın aktrisa tapmağın çətin olması idi.

Əbdürrəhim bəy, ədəbi fəaliyyətinin ikinci dövründən etibarən sənət üslubunda daha çox satiraya üstünlük verməyə başlamışdır. O, hekayələrində burjuaziya təbəqəsinin müxtəlif səhvlərini və cəmiyyətdəki sosial xəstəlikləri tənqid etmiş və əsərlərində satirik üslubun müxtəlif üsullarından istifadə etmişdir. Məsələn, "Mürtüb dəftəri" və "Həmşəri pasportu" hekayələrində cəmiyyətin quruluşuna dair tənqidi yanaşmalar önə çıxır. Bu tənqiddə ironiya xüsusilə diqqət cəlb edir. Ümumiyyətlə, Haqverdiyevin sənət yanaşmasında ironiya əsas yer tutmuşdur (3, 18).

Haqverdiyev yaradıclığının ikinci dövrünü səciyyələndirən mühüm fəaliyyəti "Molla Nəsrəddin" jurnalındakı yazılarıdır. 1907-ci ilin yanvar ayından çalışmağa başladığı jurnalda

DOI:10.30546/gdu.5.2025

ədib təxminən iyirmi ilə yaxın fəaliyyət göstərmişdir. Sabir, Mirzə Cəlil, Əli Nəzmi və Salman Mümtaz kimi şair və yazıçıların yer aldığı jurnalda Haqverdiyevin müəllifliyi xüsusilə seçilmişdir (7, 106). Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və Əbdürrəhim bəy Haqverdiyev jurnalın iş bölgüsünü bu cür müəyyən etmişdilər: Cəlil Məmmədquluzadə öz felyetonları ilə, Mirzə Ələkbər Sabir satirik şeirləri ilə, Haqverdiyev isə satirik hekayələri ilə jurnalın əsasını əmələ gətirməliydilər. Ədib Molla Nəsrəddin jurnalında "Ceyranəli", "Xortdan", "Lağlağı", "Mozalan", "Nuni Səğir", "Süpürgəsaqqal" imzaları ilə yazılar qələmə almışdır. Müəllifin "Cəhənnəm məktubları", "Marallarım" silsiləsindən satirik hekayələri, "Mozalan bəyin səyahətnaməsi" kimi əsərləri bu jurnalda dərc edilib (7, 107).

Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığının üçüncü dövrü XIX əsrin 20-ci illərində başlamış və ömrünün axırına qədər davam etmişdir. Onun bu mərhələdəki əsərləri, Azərbaycanda Kommunist rejiminin qurulması zamanı ortaya çıxan ədəbi dəyişikliklərlə səciyyələnir. O dövrdə hər sahədə olduğu kimi, ədəbiyyatda da ciddi məhdudiyyətlər tətbiq olunmuşdur və yazıçılar artıq istədikləri mövzuda sərbəst əsərlər yaza bilmirdilər. Haqverdiyev isə, bu dövrdə sosializm ideyalarını əks etdirən və didaktik xarakterli əsərlərə üstünlük vermişdir. Onun "Ağac kölgəsində", "Köhnə dudman", "Yoldaş Koroğlu", "Ədalət qapıları" kimi pyesləri və "Qisas", "Qəndil", "Kapitalizmlə mübarizə" kimi hekayələri məhz bu dövrün əsərləridir (6).

Sovet dövrü əsərlərində artıq kənd ağalarının və bəy təbəqəsinin zülmündən xilas olan kəndlilər və gənc ziyalılar ön planda idi. Xüsusilə, "Köhnə dudman" dövrün ən güclü əsərlərindən hesab edilir. Bu tarixi pyesdə XIX əsr Azərbaycanda xanlıq dövründə baş verən hadisələr təsvir olunmuşdur. “Köhnə dudman” Haqverdiyevin ikinci tarixi dramı idi (3, 22). Sonradan yazıçı bu əsərin davamı olaraq "Baba yurdu" dramını qələmə almışdır. Bu dramda kəndlilərə zülm edən Cahangir ağa kimi xarakterlər əks edilmiş, əsərin sonunda isə kəndlilərin üsyan edib ağalara qarşı qələbə qazanmaları qeyd olunmuşdur ki, bu da Sovet rejiminin ideyalarına uyğun bir mesaj idi (4, 42).

Əbdürrəhim bəy qadın azadlığını və onun nəticələrini də ruh yüksəkliyilə qələmə almışdır. “Qadınlar bayramı” pyesinin qəhrəmanı Cahan xala kəndin yeniləşməsi yolunda böyük işlər görür. Kəndə su çəkilir, məktəb, savadsızlığı ləğv edən kurs açılır. Cahan xala inqilabın yetirdiyi yeni insanlardan biridir. O öz hüquqlarını bilən azad Azərbaycan xanımıdır. “Çox gözəl” pyesi “vətəndaşlıq və səmimi qardaşlıq” hissini ifadə edən əsərdir. Əsər Haqverdiyevin həcmi kiçik olan son dramıdır. “Qırmızı qarı” pyesində ədib qarını “qırmızı tufan elçisi”, müsbət bir obraz kimi qeyd edir. Qarının bir arzusu var: zəncir və zülm dünyasının axırına çıxmaq! Əsər, əsgərlərin zülmət səltənəti üzərindəki qələbəsi ilə bitir və qarının arzusu reallığa çevrilir (3, 23).

Əbdürrəhim bəy Haqverdiyevin ədəbi fəaliyyətinin son dövründə həm öz əsərləri, həm də Qərb və Rusiya ədəbiyyatından etdiyi tərcümələr mühüm yer tutur. 1920-ci illərdə Əbdürrəhim bəy Maksim Qorkinin "İzergil qarı", "Makar Çudura", "Arxip baba və Lyonka", "Xan və oğlu" hekayələrini; Çexovun "Dəhşətli gecə", "Sirr", "Şir və Xurşid"; Andersenin "Bülbül", "Şahın təzə libası"; Şillerin "Qaçaqlar" və Emil Zolyanın "Qazmaçılar" əsərlərini Azərbaycan türkcəsinə tərcümə etmişdir (6).

Sovet dövründə Haqverdiyevin elmi məqalələri də xüsusi əhəmiyyətə malikdir. Bu məqalələr arasında Maksim Qorki, Mirzə Fətəli Axundzadə və Azərbaycan teatrına dair tədqiqatlar mühüm yer tutur. Haqverdiyev Axundzadə haqqında təkcə 1912-ci ildə qələmə aldığı "Xəyalat" əsəri ilə kifayətlənməmiş, onun həyat və yaradıcılığı ilə bağlı geniş araşdırmalar etmişdir. Həmçinin, Azərbaycan teatrının formalaşması ilə bağlı yazdığı bir sıra elmi məqalələr sonralar teatr tədqiqatçıları üçün mühüm mənbələrə çevrilmişdir (4, 20).

DOI:10.30546/gdu.5.2025

Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığının bir hissəsi publisistik əsərlərdən ibarətdir. Onun publisistik əsərlərinin mövzu coğrafiyasına diqqət etdikdə Tiflisdə yaşayıb çalışmasına baxmayaraq, Bakıdan, İrandan, Naxçıvandan, İrəvandan, Peterburqdan, Nijni Novqoroddan, Almaniyadan, Şuşadan, Vladiqafqazdan, Ağdam və Gəncədən keçərək geniş bir ərazini əhatə etdiyini müşahidə edilir. XX əsrin əvvəllərində Bakıda və Tiflisdə nəşr edilən "Hümmət", "İrşad", "Tazə həyat" və "Qruziya" qəzetlərində dərc olunan əsərlərində Haqverdiyev, maarif, mədəniyyət, məktəb, təhsil, ictimai tərəqqi və qadın azadlığı kimi məsələləri gündəmə gətirirdi. Əsərləri ilə demokratik maarifçi ideyaların geniş xalq kütləsinə yayılmasına çalışır, ictimai laqeydlik və ətaləti tənqid edir, cəmiyyətin mənəvi və əxlaqi təmizliyi ilə tərəqqisi üçün vətəndaş fəallığı və vətənpərvərlik tələb edirdi (7, 106)

O 1906-cı ildə "Ata və oğul", "Ayın şahidliyi" adlı ilk hekayələrini yazmış, "Həyat" qəzetində çap etdirmişdir. 1905-ci ilin oktyabrında isə müəllifin həmin qəzetdə "Millət dostları" adlı kiçik, bir pərdəli komediyası da çap edilmişdir (10, 26).

Əbdürrəhim bəy Haqverdiyevin publisistik fəaliyyətinin ən məhsuldar dövrü "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etdiyi illərə təsadüf edir. Yazıçı, jurnalda əsasən 1907-ci ilin yanvar ayından etibarən ard-arda çap olunan "Cəhənnəm məktubları" başlıqlı hekayələri ilə tanınmağa başlamış və bu hekayələri toplamaq məqsədilə bütün bölgələri kəndbəkənd gəzmiş, diqqətini çəkən hadisələri qələmə almışdır. Haqverdiyev Molla Nəsrəddin jurnalında dərc olunan bu hekayələrində cəhalət və istismar dünyasına qarşı tənqidi mövqedən çıxış etmişdir (10, 28). Onun "Cəhənnəm"də təsvir etdiyi obrazlar – "Hacı Mirzə", "Əhməd Ağa" və "Fazil Dərbəndi" – fərqli yollarla insanlara zülm edən, kəndlilərə əziyyət verən və cəmiyyəti müxtəlif dərəcədə xurafatla aldadan saxta mollalardır. Yazıçı 1908-ci ildən etibarən jurnalda yayımlanmağa başlayan "Mozalan Bəyin Səyahətnaməsi" adlı əsərin böyük hissəsini özü qələmə almışdır. Mozalan bəyin səyahətinə dair yazıçı, C. Məmmədquluzadənin vəfatının birinci ildönümündə məlumat vermişdir. Haqverdiyev xatirələrində, İbrahim bəyin səyahətinə cavab olaraq "Molla Nəsrəddin" jurnalındakı dostları Ömər Faiq Nemanzadə, Salman Mümtaz və Qurbanəli Şərifzadə ilə birlikdə "Mozalan bəyin səyahəti" əsərini yazmaq qərarına gəldiklərini qeyd etmişdir. Yazıçı birinci felyetonun ona aid olduğunu vurğulayaraq belə qeyd edir: "Birinci felyetonu mən başladım və Mozalanı Bakıya kimi gətirdim. Bakıdan Məşhədə onu Salman apardı. İrəvan və Naxçıvan tərəflərində isə Qurbanəli Şərifov onu gəzdirdi. Beləcə "Mozalan Bəyin Səyahətnaməsi" ərsəyə gəldi".

"Molla Nəsrəddin" jurnalında çalışdığı dövrdə, yazıçının 1909-cu ildə "İki hekayət" adlı kitabı çap edilmişdir. Bundan başqa, yazıçının məqalələri arasında xatirə şəklində olanlar da var idi. Onun "İki il" və "Beş il" adlı yazılarında, özünün məsləkdaşları olan Mirzə Ələkbər Sabir və Əliqulu Nəcəfzadə Qəmküsar haqqında təəssüratları yer alır (4, 155). Bu əsərlərdə, adıçəkilən sənətkarların yoxluğu ilə bağlı yaranan təəssüf və kədər hissləri ifadə olunur. Haqverdiyev, həmçinin, bu sənətkarların ideyalarının və əməklərinin əhəmiyyətini vurğulayaraq, onların izlərinin xalq arasında yaşadığını göstərmək istəyir (7, 107).

"Artistlik sənəti haqqında" miniatür məqaləni teatr aktyorlarından biri olan Sidqi Ruhullaya tövsiyə və ya vəsiyyət də adlandırmaq olar. 10 cümlədən ibarət bu yazıda ədib Sidqi Ruhullanın timsalında aktyorluğu dünyada millətə və mədəniyyətə böyük xidmətlərdən hesab edir. "Artist üzünü unlayıb acı həqiqətləri sənətin şəkəri ilə şirinlədib camaata yedirdir", – deyən Əbdürrəhim bəy Haqverdiyev bu sənətin xalq kütlələri üzərində təsirinə diqqət çəkir (4, 156).

"Molla Nəsrəddin" haqqında xatiratım" məqaləsi də ədibin maraq yaradan yazılarındandır. Yazıda Əbdürrəhim bəy Haqverdiyev iyirmi beş il fəaliyyət göstərən jurnal və onun naşiri Mirzə Cəlil haqqında xatirələrini qeyd etməklə bərabər, "Mirzə Cəlil məsləkindən dönmədi, az dostları ilə birlikdə sonda qalib gəlib, həmişəlik bir ad və

DOI:10.30546/gdu.5.2025

Azərbaycan ədəbiyyatında xüsusi bir cığır – "Molla Nəsrəddin" dövrü qoya bildi", – deyir. Məqalədə müəllif jurnalın Şuşa ictimai-siyasi-ədəbi həyatına necə təsir etməsini, Şuşa ziyalılarının jurnala münasibəti məsələsinə toxunaraq qeyd edir ki, "Molla Nəsrəddin"in birinci nömrəsi Şuşada çox insanın hüsn-rəğbətini qazandı (4, 158).

Haqverdiyevin məqalələri 1905-ci ildən etibarən "Molla Nəsrəddin" jurnalı başda olmaqla, "İrşad", "Tazə Həyat", "Kaspi", "Sənayei-nəfisə", "Kommunist", "Dan Ulduzu", "Revolyusiya i Kultura", "Maarif işçisi" və "Ədəbiyyat" kimi jurnal və qəzetlərdə yayımlanmışdır. Yazıçının məqalələrinin əsas mövzularından biri teatr olmuşdur. Haqverdiyev, "Azərbaycanda teatr", "Azərbaycanda xalq tamaşaları və dini dramlar", "Pəri cadu haqqında qeydlər" və digər məqalələrində Azərbaycanda teatrın inkişafını və onun xalq oyunları ilə oxşar tərəflərini müzakirə etmişdir. Əlavə olaraq, Azərbaycanın müasir teatrının banisi Mirzə Fətəli Axundzadənin teatr fəaliyyəti haqqında da danışmış, "Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti", "Mirzə Fətəlini faciəsi", "Mirzə Fətəli və ərəb əlifbası" adlı məqalələrini yazmışdır.

Əbdürrəhim bəy Haqverdiyev, dramaturq olmaqla yanaşı, özünəməxsus ədəbi sənət üslubu ilə Azərbaycan ədəbiyyatında xüsusi yer tutmuşdur. Onun "Marallarım" seriyasına daxil olan hekayələri, yol xatirələrindən ilhamlanaraq qələmə aldığı "Xortdanın cəhənnəm məktubları", inqilabdan sonra yazdığı satirik hekayələri ("Yeni təbabət", "Qaban" və s.), eləcə də "İanə" və "Sarı toyuq" kimi əsərləri hər zaman oxucuların diqqətini cəlb etmişdir. Bu hekayələr Azərbaycan Sovet nəsrinin 1920–30-cu illərində yeni əsərlər yazmağa başlayan Mir Cəlal, Sabit Rəhman və digər yazarların inkişafında mühüm rol oynamışdır. Müəllif hekayələrində burjuaziyanın səhvlərini, sosial xəstəliklərini tənqid etmiş, əsərlərinə satirik üslubun müxtəlif formalarını tətbiq etmişdir. Məsələn, "Mürtüb dəftəri" və "Həmşəri pasportu" hekayələrində cəmiyyətin çatışmazlıqları tənqid edilmişdir (10, 62).

Yazıçının hekayələrində özünəməxsus cəhətlərdən biri də mövzunu izah edərkən oxucunun daha rahat anlaması üçün haşiyələrdən istifadə etməsidir. "Pir", "Seyidlər ocağı", "Qiraət" və "Cəhənnəm məktubları" hekayələri bu baxımdan diqqətəlayiq əsərlərdir. Bu haşiyələr sayəsində yazıçı fikirlərini oxucuya daha rahat şəkildə çatdırmaqla bərabər, əsərin təsirini də artırmışdır. Hekayənin özü kimi maraqla oxunan haşiyələrdə köhnə şəhər evlərinin quruluşu, adətlər, köçərilərin həyatı, Oktyabr inqilabından əvvəl teatrın mövcud vəziyyəti, hacıların, məşədi və seyyidlərin törətdiyi hiylələr haqqında məlumatlar verilmişdir (6).

Müəllif yaradıcılığı dövründə maarifləndirici məqamları ön plana çəkmiş, dövrün eybəcərliklərini, cahilliyi ifşa etmişdir.

Əbdürrəhim bəy Haqverdiyevin ümumilikdə 80-dən çox hekayəsi var və onun hekayələri də daxil bütün əsərləri öz aktuallığı ilə hər zaman maraq doğurur.

### *Ədəbiyyat*

1. Camalov K. Molla nəsrəddinçilərin maarifçilik ideyaları. Bakı, Elm və təhsil, 2015
2. Hacıyev C. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Azərb. Universiteti nəşriyyatı, 1955
3. Haqverdiyev Ə. Seçilmiş əsərlər. Bakı, Lider nəşriyyatı, 2005
4. Haqverdiyev Ə. Həyatı və yaradıcılığı. Bakı, Elm və təhsil, 2018
5. Haqverdiyev Ə. Seçilmiş əsərləri. II. Bakı, Azərnəşr, 1971
6. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi (I cild). Bakı, Elm və təhsil, 2011
7. Əsgərli Z. Əbdürrəhim bəy Haqverdiyevin publisistikası. Bakı
8. Sarabski H. Köhnə Bakı. Bakı, Şərq-Qərb, 2006
9. Məmmədov K. Əbdürrəhim bəy Haqverdiyev. Bakı, Gənclik, 1970
10. Məmmədov M. Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı, Nurlan, 2008

DOI:10.30546/gdu.5.2025

11. Şamiloğlu Ş. Əbdürrəhim bəy Haqverdiyevin bioqrafiyası. Suallarla dolu 1916-1919-cu illər”. Bakı, Qızlar Universiteti, Elmi əsərlər, 2010

.

## SHUSHİN ENLİGHTENER-İNTELLECTUAL – ABDURRAHİM BEY HAGVERDİEV

***Alizada Tamara Sharbat, Nagiyeva Durdana Asad***

***Summary***

Azerbaijani writer and dramatist, public and political figure, classic of Azerbaijani literature, Abdurragim Bey Hagverdiev was one of the leading figures of the literary and cultural environment of the late 19th and early 20th centuries. He started his literary activity while studying in Shusha. For forty years of literary activity, Hagverdiev wrote stories, plays, feuilletons, librettos, scientific and feuilleton articles. Researchers divide the writer's creativity into three periods: the first period (1892–1905), the second period (1905–1920) and the third period (1920–1933).

Part of the work of Abdurragim Beka Hagverdieva is made up of journalistic works. With his works, he strove to convey democratic and enlightened ideas to the broad masses of the people. He criticized the indifference and inertia of society. The writer demanded and advocated civic activity and patriotism for the progress of society.

Apart from being a playwright, Abdurragim Bey Hagverdiev occupied a special place in Azerbaijani literature with his unique literary style. The stories written by him played an important role in the development of Azerbaijani Soviet novelists Mir Jalal, Sabit Rahman and other writers who began to write new works in the 1920s and 1930s. The author's stories criticized the shortcomings of society. In total, Abdurragim Beka Hagverdieva has more than 80 short stories, and all his works, including short stories, always arouse interest in their relevance.

Abdurragim bek Hagverdiev, who began his professional literary activity with dramatic works from the end of the 19th century, made several short translations from Russian literature before this period. These translated works also had an impact on the Azerbaijani reader.

## ШУШИНСКИЙ ПРОСВЕТИТЕЛЬ-ИНТЕЛЛЕКТУАЛ – АБДУРРАХИМ БЕК ХАГВЕРДИЕВ

***Ализаде Тамара Шербетовна, Нагиева Дурдана Асадовна***

***Резюме***

Азербайджанский писатель и драматург, общественный и политический деятель, классик азербайджанской литературы Абдуррагим бек Хагвердиев был одним из ведущих деятелей литературно-культурной среды конца XIX — начала XX веков. Свою литературную деятельность начал во время учебы в Шуше. За сорокалетнюю литературную деятельность Хагвердиев писал рассказы, пьесы, фельетоны, либретто, научные и фельетонные статьи. Творчество писателя исследователи делят на три периода: первый период (1892–1905), второй период (1905–1920) и третий период (1920–1933).

Часть творчества Абдуррагим бека Хагвердиева составляют публицистические произведения. Своими произведениями он стремился донести до широких масс народа демократические просветительские идеи. Он критиковал равнодушие и инертность

DOI:10.30546/gdu.5.2025

общества. Писатель требовал и пропагандировал гражданскую активность и патриотизм для прогресса общества.

Абдуррагим бек Хагвердиев, помимо того, что был драматургом, занимал особое место в азербайджанской литературе со своим уникальным литературным стилем. Написанные им рассказы сыграли важную роль в развитии азербайджанских советских прозаиков Мир Джалала, Сабита Рахмана и других писателей, которые начали писать новые произведения в 1920-х и 1930-х годах. Рассказы автора критиковали недостатки общества. Всего у Абдуррагим бека Хагвердиева более 80 рассказов, и все его произведения, включая рассказы, всегда вызывают интерес своей актуальностью.

Абдуррагим бек Хагвердиев, начавший свою профессиональную литературную деятельность с драматических произведений с конца XIX века, до этого периода сделал несколько коротких переводов из русской литературы. Эти переведенные произведения также оказали влияние на азербайджанского читателя.

***Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova***
***ATU-nun Azərbaycan dili kafedrasının 10 iyun 2025-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 18 iyun 2025-ci il***